*Layihə*

Azərbaycan Respublikası Prezidentinin
2022-ci il “__”______tarixli__nömrəli Sərəncamı ilə
**təsdiq edilmişdir.**

**2022-2028-ci illərdə Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair**

# MİLLİ STRATEGİYA

## 1. Qısa xülasə

XXI əsrin ilk illərindən etibarən Azərbaycan Respublikasında dayanıqlı sosial-iqtisadi inkişafı stimullaşdıran genişmiqyaslı islahatlar reallaşdırılmış, çətin həyat şəraitində olan şəxslərin cəmiyyətə inteqrasiyasını təmin edən sosial xidmət sisteminin yaradılması və müvafiq sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində əhatəli işlər görülmüşdür.

Azərbaycan Respublikasının ratifikasiya etdiyi bir sıra beynəlxalq sənədlərin və milli qanunvericiliyin müvafiq müddəalarında mütərəqqi sosial xidmət sisteminin yaradılması, sosial xidmətlərin daim yenilənən müasir tələblərə uyğunlaşdırılması kimi əhəmiyyətli məsələlərin həlli nəzərdə tutulmuşdur. Bu məqsədlə növbəti mərhələdə sosial xidmət sisteminin təkmilləşdirilməsi və daha gücləndirilməsi istiqamətində dövlət siyasətini müəyyən edən “2022-2028-ci illərdə Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair Milli Strategiya” (bundan sonra – Milli Strategiya) hazırlanmışdır.

Milli Strategiya ölkənin sosial xidmət sisteminin, o cümlədən qanunvericiliyin və institusional mexanizmlərin təkmilləşdirilməsi və sosial xidmətlərin təminatı üçün zəruri şəraitin yaradılması üzrə dövlət siyasətinin əsaslarını müəyyən edir. Milli Strategiyada əhalinin bütün həssas qruplarına göstəriləcək sosial xidmətlərin kəmiyyət və keyfiyyətinin artırılması, xidmətlərə əlçatanlığın təmin edilməsi və sosial səmərəlilik prinsiplərinin gerçəkləşdirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi hədəf kimi nəzərdə tutulmuşdur.

## 2. Qlobal trendlər

Birləşmiş Millətlər Təşkilatının (BMT) Əhali Fondunun hesablamalarına əsasən, 2050-ci ildə dünya əhalisinin sayının daha 2 milyard nəfər artaraq 9,7 milyard nəfərə çatacağı proqnozlaşdırılır. Son onilliklər ərzində tibbin inkişafı, səhiyyə xidmətlərinin keyfiyyətinin artması nəticəsində dünyada insanların sağlamlıq və uzunömürlülük səviyyəsi yüksəlmiş, ümumilikdə dünya əhalisinin yaş strukturunda ahıl şəxslərin sayı əvvəlki dövrlərə nisbətən xeyli artmışdır. Lakin son dövrlərdə dünyada baş verən bir sıra mənfi proseslər insanların bir qisminin həyat səviyyəsinə, sosial-psixoloji vəziyyətinə mənfi təsir göstərmiş, onların sosial təhlükəli vəziyyətə düşmələrinə səbəb olmuşdur.

Son illərdə Azərbaycan Respublikasında əhalinin etibarlı sosial müdafiəsi istiqamətində mühüm işlər görülmüşdür. Eyni zamanda, ölkəmiz müxtəlif səbəblərdən çətin həyat şəraitinə düşmüş insanların sosial müdafiəsinin təmin edilməsi məqsədilə aidiyyəti beynəlxalq və regional təşkilatlar, müxtəlif qurumlar tərəfindən qəbul edilmiş bir sıra dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilə və sazişlərə qoşulmuş, bu da insan hüquq və azadlıqlarının, o cümlədən vətəndaşların sosial hüquqlarının qəbul olunmuş beynəlxalq prinsip və normalar əsasında reallaşdırılmasına təminat vermişdir.

Bundan əlavə, XXI əsrin destruktiv texnoloji, sosioloji və digər çağırışları, qlobal rəqabətin bütün müstəvilər üzrə kəskinləşməsi trendləri innovativ üsullara və insan kapitalına söykənən müasir sosial təminat sisteminin tətbiq edilməsi məsələlərini önə çıxarmışdır ki, burada əsas məqsəd başqa sahələrdə olduğu kimi əhalinin sosial müdafiəsi sahəsində də rəqabət aparmaq imkanlarına malik, müasir çağırışlardan sığortalanmış dayanıqlı sosial sistemin qurulmasıdır.

2015-ci ilin sentyabr ayında keçirilmiş BMT-nin Dayanıqlı İnkişaf Sammitində Azərbaycanın da iştirak etdiyi BMT-nin üzvü olan dövlətlər tərəfindən “2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik” qəbul edilmiş, Gündəlikdə irəli sürülən Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün bütün imkanları səfərbər etməklə, “heç kəsi kənarda qoymamaq” prinsipinə əsaslanaraq insan həyatının və fəaliyyətinin bütün istiqamətlərində, o cümlədən yoxsulluğun azaldılması və sosial təminat sahəsində mövcud olan problemlərin aradan qaldırılması üzrə birgə səylərin göstərilməsi barədə razılıq əldə edilmişdir.

Beləliklə, həm Azərbaycan Respublikasında həyata keçirilən sosial siyasət, həm müvafiq sahədə ratifikasiya edilmiş beynəlxalq sənədlərin müvafiq müddəaları, həm də qlobal çağırışlar əhalinin daha keyfiyyətli sosial xidmətlərlə təmin olunmasını, bu sahədə yüksəkixtisaslı kadr potensialının yaradılmasını, sosial xidmət müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsini və innovativ texnologiyaları tətbiq etməklə, sosial xidmət sisteminin də müasir dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilməsini mühüm vəzifə kimi qarşıya qoymuşdur.

## 3. Azərbaycan Respublikasında sosial xidmət sisteminin mövcud vəziyyəti

Son illərdə həyata keçirilmiş uğurlu sosial siyasət nəticəsində həssas əhali qruplarından olan (valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar, bu səbəbdən sosial xidmət müəssisələrində yaşamış, həmin müəssisələri tərk etdikdən sonra yaşayış yeri olmayan şəxslər, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər, baxımsızlığa və sosial təhlükəli vəziyyətə məruz qalmış, xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslər, insan alveri qurbanları və belə risklə üzləşən şəxslər, məişət zorakılığından zərər çəkmiş şəxslər, müəyyən yaşayış yeri olmayan, sosial yadırğama və sosial məhrumiyyət vəziyyətində olan və s.) şəxslərin sosial xidmətlərlə təminatında mühüm nailiyyətlər əldə edilmiş, “Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununun qəbul olunmasından ötən dövr ərzində həyata keçirilmiş tədbirlər nəticəsində çətin həyat şəraitində olan vətəndaşların daha münasib həyat şəraitinə qayıtması imkanları artmışdır.

Sosial-iqtisadi həyatın bütün sahələrində aparılan islahatlar nəticəsində sosial cəhətdən həssas əhali qruplarının hüquqlarının etibarlı müdafiəsi istiqamətində reallaşdırılan tədbirlərin əhatə dairəsi davamlı olaraq genişləndirilmişdir. Bu kateqoriyadan olan şəxslərlə bağlı həyata keçirilən siyasətin əsas məqsədi onların cəmiyyətin digər üzvləri kimi bərabərhüquqlu, dolğun həyat şəraitinə malik olmalarının və cəmiyyətə inteqrasiya olunmalarının təmin edilməsidir.

Çətin həyat şəraitində yaşayan şəxslərə sosial xidmət göstərilməsi sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarının müəyyən edilməsi və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi məqsədilə qəbul edilmiş “Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununun icra mexanizmlərinin müəyyən edilməsi ilə bağlı müvafiq normativ hüquqi aktlar (“Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası”, “Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası”, “Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi Qaydası” və s.) qəbul edilmişdir ki, bununla da ölkədə çoxspektrli sosial xidmətlər sistemi formalaşmış və bu sistem həmin şəxslərin məruz qaldıqları çətin həyat şəraitindən müdafiəsinə, sosial reabilitasiyalarına və cəmiyyətə inteqrasiya imkanlarına malik olmalarının təmin edilməsinə yönəldilmişdir.

Ötən dövrdə sosial xidmət müəssisələrində vətəndaşlara göstərilən xidmətlərin

keyfiyyətinin yüksəldilməsi, müəssisələrin strukturlarının müasir tələblərə uyğunlaşdırılması ilə bağlı mühüm tədbirlər həyata keçirilmiş, yeni sosial xidmət müəssisələri (uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunları üçün "Məzun evi" Sosial Müəssisəsi, həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi və s.) yaradılmışdır.

Ahıl şəxslərə dövlət qayğısının artırılması istiqamətində tədbirlər davam etdirilmiş, onların sosial müdafiəsinin gücləndirilməsini nəzərdə tutan müvafiq qanunvericilik aktlarının təkmilləşdirilməsi ilə bağlı zəruri işlər görülmüşdür.

Hər bir cəmiyyətdə uşaqların sosial müdafiəsi, sağlam və firavan böyüməsi, fiziki və mənəvi inkişafı üçün həyata keçirilən siyasət həmin cəmiyyətin ümumi inkişafının əsas keyfiyyət göstəricilərindən biri hesab edilir. Sivil və ümumbəşəri dəyərləri daim yüksək tutan ölkəmiz də uşaqların münasib şəraitdə böyüyərək tərbiyə olunmaları və onların layiqli vətəndaş kimi formalaşmalarının təmin edilməsi sahəsində fəal siyasəti ilə fərqlənir. Hazırda ölkənin ixtisaslaşdırılmış sosial xidmət müəssisələri tərəfindən uşaqların münasib yaşayış şəraiti, sığınacaq və reinteqrasiya xidmətləri ilə təmin edilməsi, təhsili və peşə hazırlığının, sosial reabilitasiyasının təşkili, onlara hüquqi, psixoloji yardımın göstərilməsi və digər tədbirlər həyata keçirilir. Uşaqlarla bağlı dövlət siyasətinin əsas hədəflərindən biri uşaq müəssisələrində yaşayan uşaqların ailə mühitində böyüməsinin təmin edilməsi, eyni zamanda, onların stasionar uşaq müəssisələrinə düşməsinin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsidir. 2013-2021-ci illərdə uşaq müəssisələrinə düşmək riski olan 2872 uşaq bir sıra şəhər və rayonlarda təşkil edilən günərzi qayğı mərkəzlərində xidmətlərə cəlb olunmuş, "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı ilə bağlı 2006-2015-ci illər üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində, eləcə də sonrakı dövr üzrə fəaliyyət nəticəsində 2011-2021-ci illərdə dövlət uşaq müəssisələrində yaşayan 818 uşaq ailələrinə qaytarılmışdır.

18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin digər ölkələrdə ixtisaslaşmış bərpa müalicəsinin təşkili diqqətdə saxlanılmış, ötən dövrdə 18 yaşınadək əlilliyi müəyyən edilmiş 346 şəxsin xaricdə ixtisaslaşmış reabilitasiya kursu keçməsi təşkil edilmişdir.

Hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin məzunu olan gənclərin yaşayış problemlərinin həlli ilə bağlı ciddi tədbirlər görülmüş, bu məqsədlə çoxmənzilli binalar inşa edilərək həmin kateqoriyadan olan 590 gəncin istifadəsinə verilmişdir.

Ölkədə məişət zorakılığına qarşı mübarizənin kompleks şəkildə həyata keçirilməsi, məişət zorakılığının profilaktikası məqsədilə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunun icrası ilə əlaqədar məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyasını həyata keçirən komissiya yaradılmış və həmin komissiya tərəfindən 10 qeyri-dövlət yardım mərkəzi akkreditə edilmişdir. Bu mərkəzlərdə 2014-2021-ci illərdə ümumilikdə zorakılıqdan zərər çəkmiş 1628 şəxsə sosial, psixoloji, hüquqi, "qaynar xətt", ilkin tibbi yardım, səhiyyə müəssisələrinə yönəldilmə xidmətləri göstərilmiş, ehtiyacı olanlar müvəqqəti sığınacaqlarla təmin edilmişlər.

Qloballaşan dünyanın əsas problemlərindən olan insan alveri ilə mübarizədə müasir informasiya texnologiyalarının imkanlarından geniş istifadə və qurbanlara göstərilən dövlət dəstəyinin artırılması nəticəsində son illərdə ölkədə insan alverinin potensial qurbanlarının sayı əvvəlki dövrlərə nisbətən əhəmiyyətli dərəcədə azalmışdır. 2009-2021-ci illərdə 1146 insan alveri qurbanı və risk qrupuna daxil olan şəxsin sosial reabilitasiyası istiqamətində müvafiq tədbirlər görülmüşdür. İnsan alveri ilə bağlı ictimai məlumatlılığın artırılması məqsədilə təhsil müəssisələrində mütəmadi olaraq maarifləndirici tədbirlər keçirilmiş, ölkəyə gələn və ya ölkədən gedən şəxslərin bu və ya digər şəkildə insan alverinin qurbanı olmaq,

məcburi əməyə cəlb edilmək təhlükəsindən qorunmaq yolları barədə məlumatlandırılması təmin edilmişdir.

Sosial xidmət sisteminin daha bir istiqaməti penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial müdafiəsi və sosial adaptasiyası ilə əlaqədar tədbirlərin təşkilidir. Hazırda bu kateqoriyadan olan şəxslərə minimum aylıq əməkhaqqının 4 misli məbləğində birdəfəlik müavinət ödənilir, həmçinin sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər kimi məşğulluqlarının təmin olunması və cəzaçəkmə müddəti başa çatmaq ərəfəsində olan şəxslərin peşə hazırlığının təşkili tədbirləri həyata keçirilir. 2018-ci ildən fəaliyyətə başlayan Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi tərəfindən bu kateqoriyadan olan şəxslərin sosial adaptasiyası, qanuni mənafelərinin qorunması, onlara hüquqi, sosial-psixoloji, sosial-məsləhət yardımın göstərilməsi, həmçinin həmin kateqoriyadan olan və müəyyən yaşayış yeri olmayan şəxslərin müvəqqəti yaşayış yeri ilə təmin edilməsi üçün kompleks xidmətlər göstərilir.

Sosial xidmət sahəsində dövlət sifarişlərinin qeyri-hökumət və qeyri-kommersiya təşkilatlarına verilməsi nəticəsində 2013-2021-ci illərdə 392 layihə icra edilmiş, layihələr çərçivəsində ümumilikdə 35 mindən artıq çətin həyat şəraitində olan şəxsə və onların ailələrinə sosial-psixoloji, sosial-hüquqi, tibbi-sosial, sosial-məişət xidmətləri, sosial məsləhət yardım göstərilmiş, sosial reabilitasiya və müalicələrinin təşkili, reinteqrasiya xidmətlərinin göstərilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir.

Ölkədə demoqrafik vəziyyət əhalinin sayının ilbəil artması ilə səciyyələnir. 2000-ci ildə ölkə əhalisinin sayı 8032,8 min nəfər olduğu halda, 2022-ci il 1 yanvar tarixinə olan məlumata əsasən 10156,4 min nəfərə çatmışdır. Ölkə əhalisinin ümumi artımı müvafiq olaraq təbii səbəblərdən çətin həyat şəraitinə düşən şəxslərin sayına təsir etmişdir. Həmçinin orta ömür uzunluğunun artması əhalinin yaş strukturunda ahıl şəxslərin payının artmasını şərtləndirmişdir. Ölkədə ahıl şəxslərin sayı 2000-ci ildə 226,7 min nəfərdən 2021-ci il 1 yanvar tarixinə olan məlumata əsasən 437,7 min nəfərə çatmışdır. Beləliklə, son 21 ildə ölkə əhalisinin ümumi sayı 26,44 faiz artdığı halda, ahıl şəxslərin sayında 93,07 faiz artım qeydə alınmışdır. Həmçinin əlilliyi müəyyən edilmiş şəxslərin (o cümlədən, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin) sayı artaraq, bu müddətdə 250712 nəfərdən 614731 nəfərə qədər yüksəlmişdir. Ölkə üzrə nikahdankənar evlilikdən dünyaya gələn uşaqların və boşanmaların sayının artması uşaqların valideyn himayəsindən məhrum olmasına öz təsirini göstərmişdir.

Qeyd edilənlərə əsasən son illərdə əhaliyə göstərilən sosial xidmətlərin həcminin və sosial xidmətlərdən yararlananların sayının ilbəil artmasına baxmayaraq, bu xidmətlərə olan tələbat daha yüksək templə artmaqdadır.

Təqdim olunan sosial xidmətlərin keyfiyyəti, effektivliyi, əlçatanlığı və digər məsələlər üzrə, ümumilikdə isə sosial xidmət sisteminin inkişafına nail olunması məqsədilə Milli Strategiyanın bir sıra prioritet istiqamətləri müəyyən edilmişdir.

## 4. Milli Strategiyanın həyata keçirilməsinin hədəf göstəriciləri

4.1. Milli Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində 2028-ci ilin sonunadək sosial xidmət sisteminin inkişafında aşağıdakılara nail olunacaqdır:

4.1.1. həssas əhali qruplarına göstərilən xidmətlərin kəmiyyəti və keyfiyyəti artacaqdır;

4.1.2. müntəzəm həyata keçirilən profilaktik abilitasiya və reabilitasiya tədbirləri nəticəsində stasionar sosial xidmətə ehtiyacı olan şəxslərin sayı azalacaqdır;

4.1.3. görüləcək tədbirlər nəticəsində xidmət təklifinin artması bu sahədə rəqabəti gücləndirəcək, bu da öz növbəsində sosial xidmət göstərən subyektlər tərəfindən təklif edilən xidmətlərin keyfiyyətinə müsbət təsir göstərəcəkdir;

4.1.4. çətin həyat şəraitində olan şəxslərin ölkənin bütün regionlarında sosial xidmətə əlçatanlığı təmin ediləcəkdir;

4.1.5. innovativ texnologiyaların tətbiqi nəticəsində sosial xidmət sahəsində vahid informasiya məkanı yaradılacaqdır;

4.1.6. sosial xidmət sahəsində ixtisaslı kadr potensialı formalaşacaqdır;

4.1.7. sosial xidmət sahəsində ünvanlılıq və şəffaflıq artacaqdır;

4.1.8. əlilliyi olan şəxslər üçün reabilitasiya müəssisələrinin fəaliyyətində tibbi yanaşmanın sosial reabilitasiya modeli ilə əvəz edilməsi təmin ediləcəkdir;

4.1.9. sosial xidmət sahəsində dövlət və qeyri-dövlət sektoru arasında əlaqələrin miqyası genişlənəcəkdir.

## 5. Milli Strategiyanın məqsədləri

5.1. Milli Strategiyanın əsas məqsədləri əhalinin sosial xidmətlərlə təmin edilməsinin təşkilati, iqtisadi və hüquqi mexanizmlərinin modernləşdirilməsi əsasında ölkənin sosial xidmət sisteminin təkmilləşdirilməsindən, sosial xidmətlərin ehtiyacı olan vətəndaşlar üçün daha keyfiyyətli və əlçatan səviyyəyə çatdırılmasından, eləcə də ölkədə sosial xidmətlərin göstərilməsinin ünvanlılığının təmin olunmasından ibarətdir.

5.2. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də həssas əhali qruplarının maraq və mənafelərinə cavab verən, onlara bərabər iştirak imkanları yaradan sosial xidmətlər sisteminin təmin olunması və sosial reabilitasiya infrastrukturunun əlilliyi olan şəxslər üçün əlçatanlığının artırılması istiqamətində tədbirlərin gücləndirilməsi əsas vəzifələrdəndir.

5.3. Müəyyən edilmiş məqsədlərə nail olunması üçün Milli Strategiyanın əsas vəzifələri aşağıdakılardır:

5.3.1. çətin həyat şəraitində olan şəxslərə sosial xidmətlərin təşkili üzrə qabaqcıl təcrübələrə əsaslanan mütərəqqi sosial xidmət sisteminin qurulması və əhaliyə göstərilən sosial xidmətlərin keyfiyyətinin artırılması;

5.3.2. sosial xidmətin təşkili sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi;

5.3.3. sosial xidmət müəssisələrinin şəbəkəsinin genişləndirilməsi və maddi-texniki bazasının gücləndirilməsi;

5.3.4. sosial xidmətin təşkili sahəsində dövlət orqanları, vətəndaş cəmiyyəti institutları və beynəlxalq təşkilatların qarşılıqlı fəaliyyətinin gücləndirilməsi;

5.3.5. müvafiq sahədə kadr potensialının gücləndirilməsi üzrə sistemli işlərin aparılması;

5.3.6. sosial xidmət sahəsində müxtəlif layihələrin həyata keçirilməsinə vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi.

## 6. Milli Strategiyanın prioritet istiqamətləri

6.1. Sosial xidmətlərin keyfiyyətinin, effektivliyinin, əlçatanlığının və digər məsələlərin tam həcmdə həll edilməsi, çatışmazlıqların aradan qaldırılması, ümumilikdə sosial xidmət sisteminin inkişafına nail olunması məqsədilə Milli Strategiyanın aşağıdakı əsas prioritet istiqamətləri müəyyən edilmişdir:

6.1.1. Sosial xidmət sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi, sosial xidmətlərin keyfiyyət standartlarının müəyyən edilməsi

Milli Strategiyada nəzərdə tutulmuş məqsədlərə nail olmaq üçün qanunvericiliyin təkmilləşdirilməsi və müvafiq institusional potensialın gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçiriləcəkdir.

Qanunvericiliyin təkmilləşdirilməsində sosial xidmətlərin səmərəliliyinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması, ünvanlılığının, eləcə də ehtiyacı olan şəxslərin bu xidmətlərə əlçatanlığının təmin edilməsi əsas prinsiplər kimi nəzərə alınacaq, müvafiq sahədə

qanunvericilik bazasının qabaqcıl təcrübələrin tələblərinə uyğunlaşdırılması prioritetləri diqqət mərkəzində saxlanılacaqdır.

Ölkədə sosial xidmət sisteminin inkişafını şərtləndirən əsas amillərdən biri əhaliyə göstərilən sosial xidmətlərin keyfiyyətinin artırılmasıdır. Xidmətlərin keyfiyyətinin optimal səviyyəsini müəyyən edən standartlar müvafiq sahədə keyfiyyətə nəzarətin əsasını təşkil etməli və sistemin təkmilləşdirilməsinə ehtiyacın əsas göstəricisi olmalıdır. Bu məqsədlə əhaliyə göstərilən sosial xidmətlərin keyfiyyət standartlarına nəzarət mexanizmi müəyyən ediləcəkdir.

6.1.2. Sosial xidmət sahəsində həyata keçirilən tədbirlərin effektivliyinin artırılması məqsədilə aidiyyəti dövlət qurumları arasında əlaqələrin genişləndirilməsi

Sosial xidmətlərin koordinasiyalı və kompleks şəkildə təqdim olunması, inzibatçılığın və əlaqələndirmə işlərinin daha da güclənməsi məqsədilə aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət Koordinasiya Şurası yaradılacaqdır.

"Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən, dövlət qurumları tərəfindən birgə fəaliyyətin təşkili ilə əlaqədar lazımi məlumatların operativ və maneəsiz qaydada əldə edilməsi məqsədilə Elektron Hökumət İnformasiya Sisteminin "Sosial Xidmətlər Vahid İnformasiya Sistemi" altsistemi formalaşdırılacaq və sosial xidmətə ehtiyacı müəyyən edilmiş və sosial xidmətə cəlb edilmiş çətin həyat şəraitində olan şəxslərin həmin altsistem üzrə mərkəzləşdirilmiş məlumat bazası yaradılaraq, müvafiq qurumların bu məlumatlara çıxışı təmin ediləcəkdir.

6.1.3.Sosial xidmət müəssisələrinin fəaliyyətinin təşkili və maddi-texniki bazasının təkmilləşdirilməsi

Sosial xidmət müəssisələrinin maddi-texniki təminatının və reabilitasiya prosesinin müasir beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi istiqamətində tədbirlər görüləcəkdir.

Həmçinin uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideyn himayəsindən məhrum olmuş, həmin müəssisələri tərk etmiş və yaşayış yeri olmayan məzunlarının yaşayış sahəsi ilə təmin edilməsi ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsi davam etdiriləcəkdir.

6.1.4. Mütərəqqi beynəlxalq təcrübənin tətbiqi ilə sosial xidmət sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi

Hazırda ölkədə mövcud olan sosial xidmət sistemi şəxslərin (ailələrin) çətin həyat şəraitinə düşməsinin səbəblərinin əvvəldən müəyyən edilərək aradan qaldırılmasına deyil, artıq baş vermiş halların korreksiyasına yönəldilmişdir. Beynəlxalq təcrübəyə əsasən problemlərin yaranmasının erkən mərhələlərində müəyyən edilməsi, sosial müdaxilə olunması və müvafiq sosial dəstək tədbirlərinin həyata keçirilməsi ilə şəxslərin sosial təhlükəli vəziyyətə düşməsinin qarşısının alınması mexanizmləri tətbiq olunacaq, bu istiqamətdə profilaktik tədbirlərin görülməsi məqsədilə aidiyyəti dövlət orqanlarının yerli bölmələrində sosial işçilərin fəaliyyəti təşkil ediləcəkdir.

Çətin həyat şəraitində olan və ya çətin həyat şəraitinə düşmə riski olan şəxslərlə işin idarə edilməsi ilə bağlı beynəlxalq təcrübədə geniş istifadə olunan Keys menecment metodunun (çətin həyat şəraitində olan şəxsin ehtiyaclarının qiymətləndirilməsi, bu ehtiyacların aradan qaldırılması üçün xidmətlər paketinin təmin edilməsi, aparılan sosial işin koordinasiyası, həyata keçirilən xidmətlərin monitorinqinin təşkili və işin bağlanılması) tətbiqi istiqamətində zəruri fəaliyyət təmin ediləcəkdir.

6.1.5. Uşaqların stasionar tipli sosial xidmət müəssisələrinə və valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların saxlanıldığı, təhsil və tərbiyə aldığı təhsil müəssisələrinə düşməsinin qarşısının alınması, onların ailə mühitində böyüməsi və ya alternativ qayğı ilə əhatə olunması imkanlarının genişləndirilməsi

Uşaqların stasionar müəssisələrə düşməsi onların ailə qayğısından məhrum olması, gələcəkdə cəmiyyətə adaptasiyası və reinteqrasiyası ilə bağlı çətinliklərin yaranması ilə səciyyələndiyindən ölkədə övladlığagötürmə və ya himayədar ailə xidmətlərinin genişləndirilməsi təşviq olunacaq, eyni zamanda, uşaqların stasionar müəssisələrə düşməsinin qarşısının alınması məqsədilə dövlət sifarişi əsasında qeyri-hökumət və qeyri-kommersiya təşkilatları tərəfindən təşkil olunan günərzi qayğı mərkəzlərinin fəaliyyəti davam etdiriləcəkdir.

6.1.6. Sosial xidmətlərin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davam etdirilməsi, dövlət sifarişi ilə qeyri-hökumət və qeyri-kommersiya təşkilatları tərəfindən həyata keçirilən layihələrin davamlılığının təmin edilməsi və ölkə üzrə genişləndirilməsi

Sosial xidmətlərin təminatında sosial sifariş mexanizminin tətbiqinin vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın genişləndirilməsində, qeyri-hökumət və qeyri-kommersiya təşkilatları ilə əməkdaşlığın xidmətlərin səmərəliliyinin artırılmasında əhəmiyyəti nəzərə alınmaqla, dövlət sifarişləri əsasında həyata keçirilən layihələr çərçivəsində göstərilən xidmətlərin növünün artırılması və keyfiyyətinin daha da yüksəldilməsi ilə bağlı müvafiq tədbirlər görüləcək, xidmətlərə dair keyfiyyət tələbləri hazırlanacaqdır.

6.1.7. Sosial xidmət sistemində bazar mexanizmlərinin inkişaf etdirilməsi ilə xidmətlərin keyfiyyətinin yüksəldilməsi

Milli Strategiyanın icrası çərçivəsində özəl sektorun sosial xidmət təminatı ilə əlaqədar layihələrin təşkilinə cəlb edilməsi və bazar mexanizmlərinin gücləndirilməsi istiqamətində tədbirlər həyata keçiriləcəkdir.

6.1.8. Sosial xidmət sistemində insan resurslarının inkişafı və təminatı

Milli Strategiyanın reallaşdırılması ilə sosial xidmət sahəsində intellektual potensiala və mütəxəssislərin təhsil səviyyəsinə olan tələb də dəyişəcək və profil üzrə ali təhsilli sosial işçilərə ehtiyac yaranacaqdır. Bu məqsədlə müvafiq sahədə fəaliyyət göstərən ixtisaslı kadrların hazırlığı üzrə təhsil proqramları təkmilləşdiriləcək, kadr hazırlığı üzrə müasir innovativ texnologiyaların geniş istifadəsi təmin ediləcəkdir.

## 7. Milli Strategiyanın maliyyələşdirilməsi

7.1. Milli Strategiyada qeyd edilən tədbirlərin icrasının təmin edilməsi üçün tələb olunan xərclər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları (qurumları) üçün nəzərdə tutulmuş vəsait, büdcədənkənar vəsait, kredit və qrantlar, hüquqi və fiziki şəxslərin ianələri, eləcə də qanunla müəyyən olunmuş digər mənbələr hesabına maliyyələşdirilir.

## 8. “2022-2028-ci illərdə Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair Milli Strategiya”nın icrası üzrə

## TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti (illər üzrə) | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **8.1. Sosial xidmət sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi və sosial xidmətlərin keyfiyyət standartlarının müəyyən edilməsi** | | | | | | | |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** |
| 8.1.1. | Sosial xidmət sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması və bu məqsədlə işçi qrupun yaradılması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm vəTəhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Həmkarlar İttifaqları Konfederasiyası, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, yerli icra hakimiyyəti orqanları, aidiyyəti qeyri-hökumət təşkilatları | 2022-2028 | Sosial xidmət sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması məqsədilə işçi qrup yaradılacaqdır | Qanunvericilik aktlarında müvafiq dəyişikliklərin edilməsi ilə bağlı təkliflər hazırlanacaq və təsdiq olunması üçün aidiyyəti üzrə təqdim ediləcəkdir | Sosial xidmətlərin yeni normalar əsasında təşkilinə başlanılacaqdır |
| 8.1.2. | Himayədar ailə haqqında əsasnamənin hazırlanması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə Nazirliyi | 2023 | Azərbaycan Respublikası Ailə Məcəlləsinin 142.2-ci maddəsinə əsasən himayədar ailə haqqında əsasnamənin layihəsi hazırlanacaqdır | Himayədar ailə haqqında əsasnamə təsdiq ediləcəkdir | Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların himayədar ailəyə verilməsi təşkil olunacaqdır |
| 8.1.3. | Ödənişli və qismən ödənişli sosial xidmətlərin tariflərini müəyyən edən müvafiq | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | İqtisadiyyat Nazirliyi | 2024 | “Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli | Müvafiq normativ hüquqi aktlarda dəyişiklik ediləcəkdir | Dövlət sosial xidmət müəssisələrində və evlərdə sosial xidmət yeni |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| | normativ hüquqi bazanın təkmilləşdirilməsi | | | | və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi Qaydası"na sosial xidmət haqqının məbləği üzrə müvafiq dəyişikliklərin edilməsi ilə bağlı təkliflər hazırlanacaqdır | | normalar əsasında təşkil olunacaqdır |
| 8.1.4. | Sosial xidmət müəssisələrinin fəaliyyətinin keyfiyyət tələblərinə uyğunluğuna vahid nəzarət mexanizminin müəyyən edilməsi və bu mexanizm əsasında müəssisələrin fəaliyyətinin monitorinq və qiymətləndirilməsinin həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə Nazirliyi | 2024-2025 | Sosial xidmət müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə, səmərəliliyinə və dövlət standartlarının tələblərinə əməl olunmasına nəzarət mexanizmini müəyyən edən müvafiq hüquqi aktın layihəsi hazırlanacaqdır | Layihə təsdiq edilməsi üçün aidiyyəti üzrə təqdim ediləcəkdir | Sosial xidmət müəssisələrində təqdim olunan xidmətlərin keyfiyyətinə, səmərəliliyinə və dövlət standartlarının tələblərinə əməl olunmasına yeni nəzarət mexanizmi təşkil olunacaqdır |
| **8.2. Sosial xidmət sahəsində həyata keçirilən tədbirlərin effektivliyinin artırılması məqsədilə aidiyyəti dövlət qurumları arasında əlaqələrin genişləndirilməsi** | | | | | | | |
| 8.2.1. | Dövlət orqanlarının müvafiq sahədə fəaliyyətinin əlaqə-ləndirilməsi məqsədilə aidiyyəti dövlət orqanlarının səlahiyyətli nümayəndələrindən ibarət Koordinasiya Şurasının yaradıl-ması və fəaliyyətinin təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, yerli icra hakimiyyəti orqanları | 2024 | Koordinasiya Şurası yaradılacaqdır | Koordinasiya Şurasının Əsasnaməsi və tərkibi müəyyən ediləcəkdir | Koordinasiya Şurasının fəaliyyəti təmin ediləcəkdir |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| 8.2.2. | “Sosial Xidmətlər Vahid İnformasiya Sistemi” altsisteminin yaradılması və altsistem vasitəsilə mərkəzləşdirilmiş elektron xidmətlərin göstərilməsinin təmin edilməsi | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Elm və Təhsil Nazirliyi,<br>Səhiyyə Nazirliyi,<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi,<br>yerli icra hakimiyyəti orqanları | 2023-2028 | Çətin həyat şəraitində olan şəxslərə sosial xidmətlərin göstərilməsi ilə bağlı birgə fəaliyyətin asanlaşdırılması, lazımi məlumatların operativ və maneəsiz qaydada əldə edilməsi məqsədilə “Sosial Xidmətlər Vahid İnformasiya Sistemi” altsistemi yaradılacaqdır | Müvafiq dövlət orqanlarının fəaliyyət istiqamətləri üzrə həyata keçirdikləri sosial xidmətlərin inteqrasiya edilməsi istiqamətində müvafiq işlər aparılacaqdır | Altsistem vasitəsilə dövlət orqanları tərəfindən birgə mərkəzləşdirilmiş elektron xidmətlərin göstərilməsi təmin ediləcəkdir |
| 8.2.3. | Sosial Xidmətlər Vahid İnformasiya Sistemi üzrə sosial xidmətə ehtiyacı müəyyən edilmiş və sosial xidmətə cəlb edilmiş çətin həyat şəraitində olan şəxslərin mərkəzləşdirilmiş məlumat bazasının yaradılması və aidiyyəti dövlət qurumlarının bu məlumatlara çıxışının təmin edilməsi | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalarüzrə Dövlət Agentliyi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Elm və Təhsil Nazirliyi,<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi,<br>Səhiyyə Nazirliyi,<br>yerli icra hakimiyyəti orqanları | 2023-2024 | Müvafiq məlumatların hazırlanıb təqdim edilməsi məqsədilə dövlət qurumları tərəfindən nümayəndənin təyin olunması təmin ediləcəkdir.<br>İnteqrasiya olunacaq məlumatların siyahısı müvafiq dövlət qurumları ilə birlikdə müəyyənləşdiriləcəkdir | Aidiyyəti dövlət qurumları tərəfindən lazımi məlumatların inteqrasiya olunması təşkil olunacaqdır | Yaradılacaq məlumat bazasına qurumların çıxışı təmin ediləcək, məlumat mübadiləsi mexanizmi formalaşacaqdır |
| 8.2.4. | Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin adaptasiyası məqsədilə birgə tədbirlərin həyata keçirilməsi və bu sahədə əməkdaşlığın genişləndirilməsi | Ədliyyə Nazirliyi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Səhiyyə Nazirliyi,<br>Daxili İşlər Nazirliyi | 2022-2028 | Cəza çəkməkdən azad edilən və adaptasiyaya ehtiyacı olan şəxslərin müəyyən edilərək qeydiyyata alınması, onların sosial adaptasiyalarının təşkili üzrə müvafiq tədbirlərin həyata keçirilməsi məqsədilə aidiyyəti dövlət qurumlarından ibarət komissiya yaradılacaqdır | Komissiyanın Əsasnaməsi təsdiq olunacaq və fəaliyyət istiqamətləri müəyyən ediləcəkdir | Komissiyanın fəaliyyəti təmin ediləcəkdir |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **8.3. Sosial xidmət müəssisələrinin fəaliyyətinin təşkili və maddi-texniki bazasının təkmilləşdirilməsi** | | | | | | | |
| 8.3.1. | Sosial xidmət müəssisələrinin maddi-texniki təminatının və reabilitasiya şəraitinin müasir beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi ilə əlaqədar müvafiq tədbirlərin görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2022-2028 | Dövlət sosial xidmət müəssisələrinin (o cümlədən, yeni yaradılan müəssisələrin) infrastruktu-runun və müəssisələrdə göstərilən xidmətlərin müasir standartlara uyğunlaşdırılması məqsədilə müvafiq sahədə qabaqcıl beynəlxaq təcrübənin öyrənilməsi təmin ediləcəkdir | Sosial xidmət müəssisələrində maddi-texniki təchizatın və reabilitasiya mühitinin gücləndirilməsi və müasirləşdirilməsi istiqamətində müvafiq tədbirlər görüləcəkdir | Sosial xidmətlərin təşkili, çətin həyat şəraitində olan şəxslərin sosial, tibbi-sosial reabilitasiyası ilə bağlı fəaliyyət daim nəzarətdə saxlanılacaq və mütəmadi olaraq təkmilləşdiriləcəkdir |
| 8.3.2. | Uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideyn himayəsindən məhrum olmuş müəyyən yaşayış yeri olmayan məzunlarının yaşayış sahəsi ilə təmin edilməsi məqsədilə müvafiq tədbirlərin davam etdirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm və Təhsil Nazirliyi | 2022-2025 | Uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunlarının siyahıları müəyyən ediləcəkdir | Uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunları mərhələlərlə və növbəlilik qaydasında mənzillə təmin ediləcəkdir | Milli Strategiyanın icra müddətində və ondan əvvəl uşaqlar üçün sosial xidmət müəssisələrindən və təhsil müəssisələrindən məzun olmuş valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması təmin ediləcəkdir |
| **8.4. Sosial xidmət təminatında mütərəqqi beynəlxalq təcrübənin tətbiqi ilə sosial xidmət sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi** | | | | | | | |
| 8.4.1. | Çətin həyat şəraitinə düşmə riski olan şəxslərin (ailələrin) problemlərinin erkən aşkar edilərək aradan qaldırılması üzrə beynəlxalq təcrübənin, innovativ texnoloji həllərin öyrənilməsi və tətbiqi ilə əlaqədar tədbirlərin görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Xarici İşlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları, aidiyyəti qeyri-hökumət təşkilatları | 2023-2027 | Çətin həyat şəraitinə düşmə riski olan şəxslərin (ailələrin) problemlərinin erkən aşkar edilərək aradan qaldırılması üzrə beynəlxalq təcrübənin və innovativ texnoloji həllərin öyrənilməsinə başlanılacaqdır | Bu sahədə beynəlxalq təcrübənin və texnologiyaların ölkədə tətbiqi ilə əlaqədar müvafiq tədbirlər görüləcək, sosial işçilərin hazırlığı zamanı bu mövzuların tədrisi ilə bağlı təkliflər hazırlanacaqdır | Şəxslərin (ailələrin) problemlərinin aradan qaldırılmasına erkən müdaxilə edilməsi ilə onların çətin həyat şəraitinə düşməsinin qarşısı alınacaqdır. Bu sahədə fəaliyyət göstərən sosial işçilər üçün mütəmadi təlimlər təşkil ediləcəkdir |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| 8.4.2. | Əlilliyi olan və ahıl şəxslər üçün mobil xidmətlərin göstərilməsi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və bu xidmətlərin təşkili üçün mobil mərkəzlərin yaradılması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Xarici İşlər Nazirliyi, aidiyyəti qeyri-hökumət təşkilatları | 2024-2027 | Əlilliyi olan və ahıl şəxslərin hərəkətliliyinin aşağı olması nəzərə alınaraq, həmin şəxslərin sosial xidmətlərlə vaxtında və tam şəkildə təmin olunması üçün mobil xidmət mərkəzlərinin yaradılması üçün bu sahədə qabaqcıl dünya təcrübəsi öyrəniləcəkdir | İlkin olaraq 3 şəhər və rayonda sosial xidmətlərin mobil xidmət mərkəzləri vasitəsilə göstərilməsi təşkil olunacaqdır | Müvafiq təcrübənin ölkənin digər şəhər və rayonlarında tətbiqi üzrə təkliflər hazırlanacaqdır |
| 8.4.3. | Əhalinin sosial xidmətlərlə təmin edilməsində ünvanlılığın artırılması məqsədilə mövcud sosial xidmətlər haqqında əhali arasında geniş ictimai məlumatlandırma tədbirlərinin həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Həmkarlar İttifaqları Konfederasiyası, yerli icra hakimiyyəti orqanları, aidiyyəti qeyri-hökumət təşkilatları | 2022-2028 | Ölkədə mövcud sosial xidmətlər, onların formaları və növləri, sosial xidmətlərlə təmin olunmaq üçün müraciət qaydaları və s. barədə əhali arasında geniş ictimai məlumatlandırma tədbirləri həyata keçiriləcəkdir | Müvafiq sahədə əhalinin məlumatlandırılması və maarifləndirilməsi məqsədilə müxtəlif bukletlər, yaddaş kitabçaları, broşürlər, sosial çarxların əks olunduğu disklər hazırlanıb paylanılacaqdır | Maarifləndirmə tədbirləri tədricən ölkənin regionları üzrə genişləndiriləcəkdir |
| 8.4.4. | Çətin həyat şəraitində olan və ya çətin həyat şəraitinə düşmə riski olan şəxslərlə (ailələrlə) sosial işin aparılması zamanı tətbiq olunan Keys menecment metodu ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi və ölkədə tətbiqinin təmin edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Xarici İşlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları, aidiyyəti qeyri-hökumət təşkilatları | 2022-2028 | Çətin həyat şəraitində olan şəxslərlə sosial işin sistemli şəkildə aparılması üçün Keys menecment metodunun tətbiqi ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi təmin ediləcəkdir | Çətin həyat şəraitində olan şəxslərlə sosial işin aparılması ilə əlaqədar Keys menecment metodunun tətbiqinə başlanılacaqdır | Tədricən bütün çətin həyat şəraitində olan şəxslərlə sosial işin Keys menecment metodu ilə sistemli şəkildə aparılması təmin ediləcəkdir |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| 8.4.5. | Elektron Keys menecment sisteminin hazırlanması, həmçinin Keys menecment prosesinin tətbiqi üçün göndəriş mexanizmlərinin müəyyən edilməsi və protokolların hazırlanması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2023-2024 | Qabaqcıl beynəlxalq təcrübə əsasında "Elektron Keys menecment" sistemi yaradılacaqdır | Sistemin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşmiş elektron informasiya sisteminin (MEİS) altsistemi kimi fəaliyyəti təmin ediləcəkdir.<br>Keys menecment prosesinin tətbiqi üçün əsas olan göndəriş (qurumlararası müraciət) mexanizmi müəyyən ediləcəkdir | Zorakılıq formaları, qəddar davranış, uşaqların baxımsızlığı və digər bu kimi təcili cavab tədbirləri tələb edən halların aradan qaldırılması üçün səmərəli göndəriş mexanizmini, xidmətlərin əlaqələndirilmiş qaydada həyata keçirilməsini təsvir edən protokollar hazırlanacaqdır |
| 8.4.6. | Sosial işçilər üçün Keys menecment prosesinin aparılması ilə bağlı təlimatın hazırlanması və təlimlərin təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, aidiyyəti qeyri-hökumət təşkilatları | 2023-2028 | Keys menecment prosesinin aparılması ilə bağlı sosial işçilər üçün təlimat hazırlanacaqdır | Sosial işin aparılmasında Keys menecment metodunun tətbiqi ilə bağlı sosial işçilərin hazırlığına başlanılacaqdır | Sosial xidmətlər Keys menecment əsasında təşkil olunacaq, prosesi aparan sosial işçilərin fəaliyyətinin daim təkmilləşdirilməsi məqsədilə onlar üçün mütəmadi təlimlər təşkil ediləcəkdir |
| 8.4.7. | Ailədaxili mübahisələrin həlli ilə bağlı mediasiya xidmətlərinin tətbiqinin genişləndirilməsi üçün müvafiq tədbirlərin görülməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Daxili İşlər Nazirliyi,<br>Azərbaycan Respublikasının Mediasiya Şurası,<br>yerli icra hakimiyyəti orqanları | 2022-2028 | Ailədaxili mübahisələrdə mediasiya xidmətinin tətbiqi ilə bağlı qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi təmin ediləcəkdir | Ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə əlaqədar müvafiq tədbirlər görüləcəkdir | Ölkədə ailədaxili mübahisələrin həlli ilə bağlı mediasiya xidmətinin geniş tətbiqinə başlanılacaqdır |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| 8.4.8. | Ahıl şəxslərin əmək bazarına inteqrasiyası məqsədilə onlar üçün məşğulluq proqramlarının hazırlanması və tətbiqi, ahılların bilik və bacarıqlarına uyğun ictimai faydalı fəaliyyətə cəlb edilməsi ilə bağlı tədbirlərin görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Həmkarlar İttifaqları Konfederasiyası, yerli icra hakimiyyəti orqanları | 2022-2028 | Ahıl şəxslərin cəmiyyətə inteqrasiyası, cəmiyyətin sosial-iqtisadi həyatında fəal iştirakı imkanları və istiqamətləri, eləcə də onların potensialından səmərəli istifadə edilməsi sahəsində qabaqcıl beynəlxalq təcrübə öyrəniləcəkdir | Ahıl şəxslər üçün məşğulluq proqramları hazırlanacaq və tətbiqinə başlanılacaqdır | Ahıl şəxslərin cəmiyyətin həyatında fəal iştirakının təşkili istiqamətində tədbirlər həyata keçiriləcəkdir |
| 8.4.9. | Beynəlxalq Əmək Təşkilatının “Sosial təminatın minimum normaları haqqında” 102 saylı Konvensiyasının ratifikasiya edilməsi imkanlarının araşdırıl-ması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Xarici İşlər Nazirliyi, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Həmkarlar İttifaqları Konfederasiyası | 2023-2025 | Konvensiyanın ratifikasiya edilməsi imkanlarının araşdırılması məqsədilə müvafiq dövlət orqanlarının nümayəndələrindən ibarət işçi qrup yaradılacaqdır | Konvensiyanın və onun ayrı-ayrı fəsillərinin qəbulunun mümkünlüyü üzrə müzakirələr keçiriləcəkdir | İşçi qrupun yekun hesabatı hazırlanacaqdır |
| **8.5. Uşaqların stasionar tipli sosial xidmət müəssisələrinə və valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların saxlanıldığı, təhsil və tərbiyə aldığı təhsil müəssisələrinə düşməsinin qarşısının alınması, onların ailə mühitində böyüməsinin və ya alternativ qayğı xidmətləri ilə əhatə olunması** | | | | | | | |
| 8.5.1. | Uşaqların stasionar sosial xidmət müəssisələrinə düşməsinin qarşısının alınması məqsədilə stasionar tipli qayğının tədricən alternativ xidmətlərə transformasiya olunması mexanizminin müəyyən edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | 2024-2025 | Ailə qayğısından məhrum olmuş uşaqlara alternativ xidmətlərin təşkili üzrə qabaqcıl beynəlxalq təcrübə öyrəniləcəkdir | Stasionar sosial xidmətlərin tədricən alternativ sosial xidmətlər sisteminə (icma və ailə əsaslı xidmətlər, günərzi qayğı xidmətləri, qəyyumluq, himayədarlıq və s.) transformasiyasını müəyyən edən mexanizm müəyyən ediləcəkdir | Alternativ sosial xidmətlərin və günərzi qayğı mərkəzlərinin şəbəkəsinin genişləndirilməsi ilə bağlı tədbirlər müəyyənləşdiriləcəkdir |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| 8.5.2. | Övladlığagötürmə və himayədar ailə xidmətlərinin genişləndirilməsinin təşviqi istiqamətində tədbirlərin həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları, aidiyyəti qeyri-hökumət təşkilatları | 2023-2028 | Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi və himayədar ailəyə qəbulunun təşviqi məqsədilə təbliğat xarakterli və stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi davam etdiriləcəkdir | Cəmiyyətdə uşaqların övladlığa və himayəyə götürülməsinə müsbət münasibətin formalaşdırılması məqsədilə müxtəlif televiziya verilişləri, sosial çarxlar mediada yayımlanacaqdır | Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsinin və himayəyə qəbulunun təşviqi alternativ xidmətlərin inkişafına müsbət təsir göstərəcəkdir |
| 8.5.3. | Övladlığa götürənlər, qəyyumlar, himayəçilər və himayədar ailələr üçün sosial-məsləhət yardımı və psixoloji-pedaqoji dəstək xidmətlərinin yaradılması, himayədar ailə qayğısı göstərən şəxslər (ailələr) üçün təlimatın hazırlanması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları, aidiyyəti qeyri-hökumət təşkilatları | 2024-2025 | Uşaqların funksional, böyük və kiçik motorika, ünsiyyət və koqnitiv bacarıqlarının inkişaf etdirilməsi, psixoloji inkişafın yaş xüsusiyyətlərinə uyğunluğunun təmin edilməsi məqsədilə övladlığa götürən şəxslər və qəyyumlar (himayəçilər) üçün sosial-məsləhət yardımı və psixoloji-pedaqoji dəstək xidmətlərinin təşkilinə başlanılacaqdır | Himayədar ailə qayğısı göstərən şəxslər (ailələr) üçün təlimatın layihəsi hazırlanacaqdır | Yeni yaradılan xidmətlər yetkinlik yaşına çatmayanların inkişafındakı geriliklərin və davranışlarındakı pozuntuların profilaktika-sında, təhsillərinin təşkilində ailə tərbiyəsinə dəstək olacaqdır. Himayədar ailə qayğısı göstərən şəxslər (ailələr) üçün təlimat təsdiq ediləcəkdir |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| **8.6. Sosial xidmətlərin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davam etdirilməsi, dövlət sifarişi ilə qeyri-hökumət və qeyri-kommersiya təşkilatları tərəfindən həyata keçirilən layihələrin davamlılığının təmin edilməsi və ölkə üzrə genişləndirilməsi** | | | | | | | |
| 8.6.1. | Sosial xidmətlərə olan ehtiyaclarının müəyyən edilməsi məqsədilə ölkənin iqtisadi rayonları üzrə araşdırmaların həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, yerli icra hakimiyyəti orqanları, aidiyyəti qeyri-hökumət təşkilatları | 2023-2024 | Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) sosial xidmətlərə əlçatanlılıq səviyyəsinin qiymətləndirilməsi, iqtisadi rayonlar üzrə paylanmasının müəyyən edilməsi məqsədilə sosial sifarişlər çərçivəsində sosial xidmətlərin qiymətləndirilməsi və xəritələşdirilməsi layihəsinin həyata keçirilməsi üçün müsabiqə elan ediləcəkdir | Sosial xidmətlərin qiymətləndirilməsi və xəritələşdirilməsi layihəsi həyata keçiriləcək və bunun əsasında sosial xidmətlərin prioritet istiqamətləri müəyyən ediləcəkdir | Layihənin nəticələrinə əsasən sosial sifarişlər çərçivəsində sosial xidmətin təşkili ilə bağlı yeni layihələr icra ediləcək və sosial xidmət müəssisələri yaradılacaqdır |
| 8.6.2. | Sosial xidmət sahəsində dövlət sifarişlərinin verilməsi ilə həyata keçirilən layihələrin davamlılığının təmin edilməsi, şəbəkəsinin genişləndirilməsi, həmçinin layihələr çərçivəsində göstərilən xidmətlərin keyfiyyətinin artırılması ilə bağlı tədbirlərin görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları, aidiyyəti qeyri-hökumət təşkilatları | 2023-2028 | Layihələrin davamlılığının təmin edilməsi məqsədilə müvafiq mexanizm müəyyən ediləcəkdir | Dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələr çərçivəsində göstərilən xidmətlərin minimum səviyyəsini müəyyən edən normativ sənədlər hazırlanıb təsdiq ediləcəkdir | Layihələr çərçivəsində göstərilən sosial xidmətlərin keyfiyyətinin və səmərəliliyinin təmin edilməsi məqsədlə xidmətlərin mütəmadi monitorinqi həyata keçiriləcəkdir |
| **8.7. Sosial xidmət sistemində bazar mexanizmlərinin inkişaf etdirilməsi ilə xidmətlərin keyfiyyətinin yüksəldilməsi** | | | | | | | |
| 8.7.1. | Sosial xidmət sahəsində korporativ sosial məsuliyyətin inkişafının təmin edilməsi və sosial xidmət təminatı ilə əlaqədar layihələrin təşkilinə biznes strukturlarının cəlb edilməsi istiqamətində təşviqat tədbirlərinin həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, İqtisadiyyat Nazirliyi, aidiyyəti qeyri-hökumət təşkilatları | 2023-2028 | Vətəndaş cəmiyyəti institutlarının və özəl sektorun sosial xidmət təminatı ilə əlaqədar layihələrin təşkilinə cəlb edilməsi ilə bağlı təşviqat tədbirləri həyata keçiriləcəkdir | Vətəndaş cəmiyyəti institutları və kommer-siya təşkilatları ilə müvafiq sahədə tərəfdaşlıq münasibət-lərinin qurulması üzrə tədbirlər həyata keçiriləcəkdir | Qeyri-hökumət subyektləri tərəfindən yeni sosial xidmətlərin yaradılması ilə sosial xidmət təklif edən subyektlərin dairəsi genişlənəcək, bu da müvafiq sahədə rəqabət mühitinin güclənməsinə, sosial xidmət təminatçıları |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | tərəfindən təklif edilən xidmətlərin keyfiyyətinə müsbət təsir göstərəcəkdir |
| 8.7.2. | Mövcud qanunvericiliyə əsasən əmək qabiliyyəti olmayan yaxın qohumlarını saxlamağa və onlara qayğı göstərməyə borclu olan şəxslərin bu işdə məsuliyyətinin artırılması məqsədilə effektiv təsir mexanizmlərinin müəyyən edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2024-2025 | Əmək qabiliyyəti olmayan yaxın qohumlarını saxlamağa və onlara qayğı göstərməyə qanunvericiliyə əsasən borclu olan şəxslərin bu işdə məsuliyyətinin artırılması üçün effektiv təsir mexanizmlərinin müəyyən edilməsi məqsədilə müvafiq hüquqi aktlarda dəyişiklik edilməsi ilə bağlı qanunvericilik layihələri hazırlanacaqdır | Müvafiq normativ hüquqi aktlar qəbul ediləcəkdir | Yeni normaların tətbiqi bu sahədə effektiv təsir mexanizmlərinin formalaşdırılmasına imkan verəcəkdir |
| **8.8. Sosial xidmət sistemində insan resurslarının inkişafı və təminatı** | | | | | | | |
| 8.8.1. | “Sosial işçi”, “Sosial xidmətçi”, “Sosial pedaqoq” və “Sosial iş üzrə mütəxəssis-psixoloq” peşələri üçün peşə standartlarının müəyyən edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2022-2023 | Sosial işçi, sosial xidmətçi, sosial pedaqoq və psixoloqlar üçün tələb olunan bilik, bacarıq və vərdişləri, iş təcrübəsini, onların əmək funksiyalarını və s. müəyyən edən peşə standartlarının layihələri hazırlanacaqdır | Peşə standartları təsdiq ediləcəkdir | Peşə standartlarının tətbiqi həmin şəxslər tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılmasını təmin edəcəkdir |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| 8.8.2. | Müvafiq sahə üzrə kadrların ixtisasının müasir tələblərə uyğun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi, yüksəkixtisaslı və peşəkar kadr hazırlığının təmin edilməsi məqsədilə təhsil müəssisələrində mövcud proqramların təkmilləşdirilməsi, kadr hazırlığı üzrə müasir innovativ texnologiyaların tətbiq edilməsi | Elm vəTəhsil Nazirliyi (söhbət təhsil müəssisələrində müvafiq tədbirlərin görülməsi ilə bağlı olduğundan bu tədbir üzrə Elm və Təhsil Nazirliyinin təklifi nəzərə alınmamışdır) | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Xarici İşlər Nazirliyi | 2023-2026 | Sosial xidmət sahəsində fəaliyyət göstərən əməkdaşların müvafiq sahədə tətbiq olunan yeni metodika və texnologiyalar barədə məlumatlandırılması məqsədilə müvafiq təlimlər və kurslar təşkil ediləcəkdir | Sosial xidmətin göstərilməsi sahəsində ixtisaslı kadrların hazırlığı üzrə ali təhsil müəssisələrində təhsil proqramları təkmilləşdi-riləcəkdir | Sosial xidmətin təşkili üzrə ixtisaslı kadrların hazırlanmasında qabaqcıl təcrübənin və innovativ texnologiyanın tətbiqi müvafiq sahədə kadr potensialını gücləndirəcəkdir |
| 8.8.3. | Sosial xidmətin göstərilməsi sahəsində fəaliyyət göstərən əməkdaşların mütəmadi attestasiyadan keçirilməsi və attestasiyanın nəticələrinin əməkdaşların karyera inkişafı zamanı nəzərə alınması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2023-2028 | Sosial xidmətin göstərilməsi sahəsində fəaliyyət göstərən əməkdaşların bilik və bacarıqlarının, peşəkarlıq səviyyələrinin qiymətləndirilməsi üçün meyarlar müəyyən ediləcəkdir | Sosial işçilərin və sosial xidmətçilərin xidməti fəaliyyətinin mütəmadi qiymətləndirilməsi həyata keçiriləcəkdir | Qiymətləndirmənin nəticələrinə əsasən müvafiq idarəetmə (şəxsin tutduğu vəzifəyə uyğunluğu, xüsusi təlim və kurslara ehtiyacının olması və s.) qərarları qəbul ediləcəkdir |